# Dərdimizə işıq tutan şair



**İmam Cəmilli,**
şair-publisist

**(əvvəli ötən sayımızda)**

Vətən həsrətli dərdində güzgülənən şair sözlərinin "gücsüz" olduğunu görüb, köməyə el sınağından çıxmış aşağıdakı bayatını çağırır.

**Əzizinəm Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ. Aləm cənnətə dönsə, Yaddan çıxmaz, Qarabağ.**

Dərdli dərdlini tez başa düşər. Rəfail Tağızadənin taleyi ilə Adam Mitskeviçin taleyində oxşarı, üst-üstə düşən ağrı nöqtələri çoxdur. Ömrünün çoxunu qürbətdə yaşamağa məcbur olan vətən aşiqi Adam Mitskeviç kimi Rəfail Tağızadə də mənfur düşmənin təzyiqi ilə doğma yurd-yuvasından didərgin salınmışdı. Öz dərdini polyak şairinin dərdinə qatan şairin qələmi ilə "göz yaşı" tökür.

**Hər şairin taleyində, bir dar ağacı.**
**Kəndiri yellənən dar ağacı abidətək ucalır**
**şair məzarlarında.**
**Özü dar ağacında çırpınır, şöhrəti quş kimi**
**havada uçur.**

Şair düzgün qənaətə gəlir. Bu gün Varşavanın küçələrində qoyulan abidə Adam Mitskeviçin gecikmiş şöhrətinin təsdiqidir.

Şair Adam Mitskeviçin "Krım sonetləri"ni xatırlamaqla Krım tatarlarının da vətəninin işğalda olduğunu qeyd edir.

Şairin tatar və Azərbaycan folklorundan nümunə çəkdiyi bayatıların nə qədər yaxın və eyni ruhlu olduğunu diqqətə çəkir.

Rəfail Tağızadə poemanın sonunda bir həqiqətə inanır. O həqiqət aşağıdakıdır:

Üzə sevinc yaraşır gəlib gedəndi kədər. Ömrü elə yaşadın, tale getmədi hədər. Sən gözəl nümunəsən bu bəşərə, bu xalqa. Rahat uyu, gələcək, sonda hər kəs bu haqqa. Varşavaya qar yağır, qar yağır ağır-ağır.

Durub uca zirvədə, şair vətənə baxır.

Bəli, bu gün Adam Mitskeviçin heykəli uca zirvədən vətəninin azad olmasına, firavan həyatına baxır.

Rəfail Tağızadə də doğma torpaqlarının otuz ildən sonra düşməndən azad olunaraq çiçəklənməsinə baxıb fərəhlənir. Söylədiklərimizin hər iki şairin oxşar taleləri deyilmi? Bu haqda daha ətraflı sonra.

Kitabda gedən ikinci poema "Qara-qırmızı Xocalı" adlanır. Müəllif belə bir qeyd verir: (Muğam üstündə oxunan ağı).

Lirik səpkidə yazılmış poemanı müəllifin ağı adlandırması düzgün fikirdir. Çünki Xocalının dərdi heç bir ağıya, bayatıya sığası dərd deyil. Xocalı Azərbaycan xalqının sağalmaz yarasıdır.

Erməni qaniçənlərinin gecə əliyalın şəhərin üstünə tankla, pulemyotla hücuma keçməsi, dinc əhalini gülləədən keçirməsi, insanlığa sığmayan bir hadisə idi.

Şair həmin gecənin qan donduran hadisəsini ürəkağrısı ilə misralarda poetikləşdirir.

Evindən qaçanlar gülləyə qaçır, Analar sinəsin gülləyə açır.

Şaxtada o bayraq körpə əlinin,

İçində don vurmuş bir ümid baxır.

Şaxtalı zülmət bir gecədə özünü itirən adamlar gülləyə doğru qaçırlar. Ölümü üstün tutanlar erməni işgəncələrinin şahidi olmaq istəmirlər.

Tökülən insan qanı qar üstdə Xocalı yazır. Qara-qırmızı dərdli Xocalının əsir düşənlərinin başına gətirilən müsibətin birinə oxucu diqqətini çəkir şair.

Kəsib anasının, kəsib döşünü, Basır dil açmayan körpə ağzına. Sonra da suçsuz məsum körpəni, Xəncər bıçağıyla vurur divara. Soyur o yapışqan nazik dərisini, Soyur təpəsindən dırnağa kimi... Soyur anasının gözü önündə...

Adamın damarında qanı donur. Faşistlərin atasına rəhmət oxudan erməni cəlladları öz əməllərindən zövq alırlar.

2017-ci ildə yazılan poemanın sonunda şair inamla yazır. Və öz yazdığına özü inanmaqla bərabər, oxucunu da inandırmağı bacarır.




**Min illik tarixi olan Xocalı,**
**Yerində təzə bir şəhər salacam.**

Bax, budur şair uzaqgörənliyi.

Şair, indi arzulanan Xocalı yenidən ucaldılıb. Xocalının bu günündən yaz şair, düşmənə qələminlə dağ çək.

* * *

Rəfail Tağızadənin "Qarabağ – həsrətdən zəfərə" adlı kitabı ilə tanışlıq zamanı müəllifin gözəl nasir olduğunu gördüm.

***Bəzi qələm sahibləri 'istedad'larını nümayiş etdirmək üçün müxtəlif janrlarda əsərlər yazırlar. Məsələn uzun illər şeir yazan bir də görürsən ki, hekayə, povest, hətta roman yazdı. Azçox şeirdə olan uğuruna, nəsrə keçməklə kölgə salır. Sözü uzatmaqda məqsədim odur ki, az qələm sahibi poeziyada qazandığı uğuru nəsrdə də saxlaya bilir. Belə istedadlı qələm sahiblərindən biri də şair və nasir Rəfail Tağızadədir. Bunu onun əlimizdə olan yaradıcılıq nümunələri də təsdiq edir.***

***Məqsəddən uzaq düşməyək. Keçək müəllifin nəsr nümunəsinin daşıyıcısı olan 'Qarabağ – həsrətdən zəfərə" kitabına. Müəllifin hər iki kitabı ilə tanışlıq zamanı oxucu Rəfail Tağızadə yaradıcılığında da sevincin damla, qəmin, kədərin, dərdin, həsrətin batmanla olduğunu görməmiş olmaz.***

Oxucu kimi Qarabağ mövzusunda yazılmış çox əsərlərlə tanışlığım var. Çəkinmədən demək olar ki, Rəfail müəllim kimi heç bir qələm sahibi Qarabağ ağrısını yaşamayıb. "Qarabağ – həsrətdən zəfərə" kitabını vərəqləyəndə inana bilmirsən ki, insan, fil çəkə bilmədiyini necə çəkə bilib. Bax, burda müəllifin həsrət nəğmələri "oxuyan" hər misrası qarşısında təəccübdən heyrətlənməyə bilmirsən.

Kitabda lirik səpkidə yazılmış yazıları esse də, hekayə də, gündəlik də adlandırmaq olar. Gündəlik adlandırmaq ona görə deyirəm ki, Ağdamın hər daşı, hər ağacı, hər binası və s. ardıcıllıqla bir-bir xatırlanır. Kitabla tanışlıq zamanı oxucuda elə təsəvvür yaranır ki, müəllif Ağdamın işğal olduğu gündən həsrətin gündəliyini yazıb. Real, inandırıcı və ürək ağrısı ilə.



Hamı doğulduğu ocağı sevir. Amma Rəfail Tağızadənin qələmində çıtır-çıtır alışmaq, yanmaq var. Bu sevgidən çox fəda olmaqdır. Müəllifin nəsr yaradıcılığının hər misrasında doğma ocağa hey kəslə müqayisə olunmayan Məcnuna bir məhəbbətin şahidi oluruq.

Kitabın ilk səhifəsində "Həsrətin yolçusu" şeirində deyilir:

Ay bu yolu gedən yolçu, Yolu, səmti bilirsənmi? O tanınmaz cığırlardın, Kolun izin silirsənmi?

Yağı düşmən tərəfindən uçulub, dağıdılmış abad bir səhəri görən yolçudan şair soruşur: "Dərdlər səni üşüdübmü?" Üşütdü şair. "Yarı sökük divarda oxuyan bəyquşu" görən yolçunu dərd necə üşütməsin?

Sonrakı bənddə şair soruşur: Nə gördün, söylə görüm? Nə dedi qalanlarım?

Duydumu ayaq səsin, Qəbirdə olanlarım?

Şeir 2016-cı ildə yazılıb. Şairin arzusu isə 2020-ci ildə çin oldu. Həmin sevinci qəbirdə olanlar da hiss etdilər və duydular.

Müdriklərin sözüdür: "Dərdli danışan olar". "Qarabağ ağrısı" yazısında müəllif dərdli olmağının səbəbinə güzgü tutur. Mənfur düşmənin tapdağı altında olan Qarabağ bütün Azərbaycan xalqının dərdi idi. Üç on illiyə yaxın bir zaman kəsiyində Qarabağdan söz düşəndə hamını utanc və xəcalət təri bürüyürdü.

Müəllif yazır: "Bu dünyanın içində hər kəsin bir-birinə bənzəməyən öz dünyası var. Mənim dünyam Qarabağdır".

Bəli, Rəfail müəllimin öz Qarabağı var. Qarabağın qoynunda göz açıb, oranın havasını udub, xoşbəxt uşaqlıq illərini orada keçirib. O torpağın hər daşı, hər ağacı Rəfail müəllim üçün müqəddəsdir. Qarabağla bağlı yazdığı hər bir həsrət nəğməsində Qarabağın müqəddəsliyini önə çəkir.

"Ola bilər ki, Qarabağ bir başqası üçün xəritədə kiçik bir torpaqdır. Amma Qarabağ mənim üçün Vətəndir, yurd yeridir, həsrətlə inildəyən, qovrulan yaralı torpaqdır, müqəddəs məkandır. Bir sözlə, hər şeydir. Qarabağ eyni zamanda mənim məğlub adımdır", – deyən müəllifin kinayəsi çox söz deyir.

Qarabağı xəritədə kiçik torpaq bilənlər, xüsusən vəzifə sahiblərinin uşaqları müxtəlif variantlarla aradan çıxdılar. Qarabağı müqəddəs bilənlər isə şəhid və qazi oldular.

Qarabağ mənim məğlub adımdır, deyən müəllif, məğlubiyyətlə barışmır. Yazdığı yazının hər misra və sətrində şimşək olub çaxır. Bütün canı vəqanı ilə müqəddəs Qarabağ torpağının azad olması üçün silahı olan qələminə sarılır.

Ola bilər ki, bəzi üzdəniraq oxucu bizim fikrimizlə razılaşmasın. Bizimlə razılaşmayan həmin oxucu zəhmət çəkib yazıçının kitabını oxusun və onda biləcək ki, o həsrətin, dərdin, qəmin görünməyən əzabını çəkib misralara düzən qələm sahibinin özü və qələmi qarşısında bizim təmtəraqlı sözlərimiz çox sönük görünür.

***Müəllif Qarabağ ağrısının kulminasiya nöqtəsini oxucusuna bu cür çatdırır: "Güllələr çox idi, amma məni gülləsindən də çox incidən yayın istisində dəmir vaqonun altından asılan beşikdə yırğalanan məsum körpələrin baxış gülləri idi".***

***Bu ağrıya təskinlik verməkdə söz acizdir. Yuxarıda qeyd etdiyimiz kimi Rəfail Tağızadənin 'Qarabağ – həsrətdən zəfərə" kitabı ağrılarla yorğunlub. Amma içindəki 'Hər yerdə seçilənlər" adlı yazı öz ağrıları ilə başqa yazılardan seçilir. Yazı 'Qarabağ qazilərinə" həsr edilib. Yeri gəlmişkən bir məsələni də vurğulayım ki, bu yazıdan mənə də pay düşür. Belə ki, mən də Əfqanıstan və Qarabağ müharibəsi iştirakçısıyam.***

***Yazını oxuyanda min dəfə Allaha şükür etdim ki, müharibənin fəlakətlərini əlli ilə yaxın bədənimdə daşısam da, əzalarım yerindədir. Bu yazı mənə 'sağlamlığımı" xatırlatdı...***

**(ardı gələn sayımızda)**